AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI SLAVYAN UNİVERSİTETİ

Müasir Azərbaycan dili kafedrası

Magistr pilləsi, Azərbaycan dili və ədəbiyyatı tədrisinin metodika və metodologiyası ixtisası üzrə

# PROQRAM

# ORFOQRAFİYA TƏLİMİNİN ELMİ ƏSASLARI (SEÇMƏ FƏNN)

Bakı – 2015

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI SLAVYAN UNİVERSİTETİ**

**Müasir Azərbaycan dili kafedrası**

**Magistr pilləsi, Azərbaycan dili və ədəbiyyatı tədrisinin metodika və metodologiyası ixtisası üzrə**

# P R O Q R A M

## ORFOQRAFİYA TƏLİMİNİN ELMİ ƏSASLARI (SEÇMƏ FƏNN)

*Azərbaycan Respublikası*
*Təhsil Nazirliyinin 09.12.2014-cü il tarixli*
*1247 №li əmri ilə təsdiq edilmişdir.*

**Bakı – 2015**

**Müəllif:** **A.G.Məmmədov**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Rəyçilər:** **A.İ.Məmmədova**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*BSU-nun dosenti;*

**S.H.Məmmədli**
*pedaqoji elmlər namizədi,*
*Turizm İnstitutunun dosenti*

**Elmi redaktor:** **İ.Z.Qasımov**
*filologiya elmləri doktoru, BSU-nun professoru*

© BSU, 2015

## İZAHAT VƏRƏQƏSİ

Ali təhsil müəssisələrinin filologiya fakültələrinin magistrləri üçün nəzərdə tutulan fənnin **əsas obyekti** seçmə fənn kimi orfoqrafiya təliminin əsaslarını öyrətməyi nəzərdə tutur. Kursun **predmeti** orta ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi prosesidir.

Məlumdur ki, orta məktəbin Azərbaycan dili kursunda orfoqrafik bilik, bacarıq və vərdişlərin verilməsi əsas məqsədlərdən biridir.

Azərbaycan dili orfoqrafiyasının kütləvi şəkildə mənimsədilməsi həm də dövlət qayğısı və nəzarətindədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamına əsasən ilk nəşr olunan kitablardan biri də "Azərbaycan dilinin orfoqrafiya lüğəti"dir. ("Lider nəşriyyatı", 2004). Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyevin 02 yanvar 2003-cü il tarixli fərmanı ilə qüvvəyə minmiş "Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu"nun 13-cü maddəsinin 2-ci bəndində yazılır: "Müvafiq icra hakimiyyəti orqanı 5 ildə bir dəfədən az olmayaraq yazı dili proqramlarını təsbit edən lüğətin (orfoqrafiya lüğətinin) nəşr olunmasını təmin edir". Bütün bunlar fənnin **aktuallığını** təmin edir.

Proqram orfoqrafiya təliminin əsaslarını magistrlərə öyrətmək üçün aşağıdakı **məqsəd və vəzifələri** nəzərdə tutur:

- Orfoqrafiya təlimi üzrə indiyə qədər aparılmış tədqiqat işlərini öyrənmək;
- Mövcud Azərbaycan dili proqram və dərsliklərinin problemlə bağlı imkanlarını müəyyən etmək;
- Mövcud orfoqrafiya lüğətlərini, məktəblilər üçün tərtib olunmuş orfoqrafiya lüğətlərini tədqiq və təhlil etmək;
- Orfoqrafiya təlimin üsul, yol və prinsiplərini öyrənmək;

- Orfoqrafik bilik, bacarıq və vərdişlərin aşılanmasında Azərbaycan dili kursunun digər bölmələrinin, habelə orta məktəblərdə tədris olunan digər fənlərin yerini aşkara çıxarmaq.

- Proqram tərtibində magistrlərin orfoqrafiya təlimində təkcə mövcud biliklərə yiyələnməsi yox, onların özlərinin bu sahə üzrə tədqiqat apara bilmələri üçün imkanların yaradılması.

# ƏSAS HİSSƏ

**I. Azərbaycan dili orfoqrafiyasının elmi-metodik əsaslarına dair tədqiqat işləri.** Ə. Dəmirçizadə, A. Abdullayev, Ə. Əfəndizadə, B. Əhmədov, H. Balıyev və b.nın müvafiq əsərlərinin təhlili. Azərbaycan dilinin orfoqrafiya lüğətləri: 1975, 2004 və 2013-cü ildə nəşr olunan "Azərbaycan dilinin orfoqrafiya lüğəti", onların müqayisəli təhlili. Məktəblilər üçün tərtib edilmiş orfoqrafiya lüğətləri, onların xarakterik cəhətləri.

**Ədəbiyyat**


1. Azərbaycan dilinin orfoqrafiya lüğəti, Bakı – 1975
2. Azərbaycan dilinin orfoqrafiya lüğəti, "Lider nəşriyyatı", 2004.
3. Azərbaycan dilinin orfoqrafiya lüğəti, Bakı – 2013
4. Əfəndizadə Ə. Düzgün yazı təliminin elmi əsasları, "Maarif" 1974.
5. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili (fonetika, orfoepiya, orfoqrafiya), "Maarif" nəşriyyatı, 1972.
6. Əfəndizadə Ə. Orfoqrafiya – orfoepiya lüğəti (kompleks lüğət) 2011.
7. Quliyeva A., Soltanov M. Məktəblinin orfoqrafiya-orfoepiya-qrammatika lüğəti, Bakı, 2011.


**II. Azərbaycan dili orfoqrafiyasının elmi-nəzəri əsasları.**

Azərbaycan dili orfoqrafiyasının xüsusiyyətləri düzgün yazı təliminin əsası kimi. Azərbaycan dili orfoqrafiyasının prinsipləri və bunların təlimdə nəzərə alınması: fonetik prinsip, morfoloji prinsip, tarixi-ənənəvi prinsip, şərtilik prinsipi.

Dil ünsiyyətinin şifahi və yazılı formaları, onların qarşılıqlı əlaqəsi.

**Ədəbiyyat**


1. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili (fonetika, orfoepiya, orfoqrafiya), "Maarif" nəşriyyatı, 1972.
2. Müasir Azərbaycan dili, I hissə, "Elm" nəşriyyatı, 1978.

**III. Orfoqrafiya və onun bölmələri.**

Sait və samitlərin yazılışı; şəkilçilərin yazılışı; mürəkkəb sözlərin yazılışı; köməkçi sözlərin yazılış; birinci hərfi böyük yazılan sözlər; ixtisarların (abreviaturaların) yazılışı; sözün sətirdən sətirə keçirilməsi qaydaları.

**Ədəbiyyat**

1. Azərbaycan dilinin orfoqrafiya lüğəti, Bakı – 1975
2. Azərbaycan dilinin orfoqrafiya lüğəti, "Lider nəşriyyatı", 2004.
3. Azərbaycan dilinin orfoqrafiya lüğəti, Bakı – 2013

**IV. Orfoqrafiyanin spesipik cəhətləri (xüsusiyyətləri) və bunların təlimdə nəzərə alınması.**

Orfoqrafiya qaydalarının ümuminin razılığı ilə bəyənilib qəbul edilməsi. Orfoqrafiya qaydalarının vacibliyi və hamı tərəfindən qəbul olunması. Yazıda ikiliyə yol verilməməsi. Orfoqrafiyanın kütləvi xarakter daşıması. Orfoqrafiyanın stabilliyi. Orfoqrafiyanın şərtiliyi.

**Ədəbiyyat**

1. Əfəndizadə Ə. Düzgün yazı təliminin elmi əsasları, "Maarif" 1974.
2. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili (fonetika, orfoepiya, orfoqrafiya), "Maarif" nəşriyyatı, 1972.
3. Müasir Azərbaycan dili, I hissə, "Elm" nəşriyyatı, 1978.

**V. Orta məktəb kursunda orfoqrafiya təliminin məzmunu, məqsəd və vəzifələri.**

Orfoqrafiya təliminin ümumi **metodik prinsipləri**: a) Morfemlərin yazılışı ilə mənalarının müvazi mənimsədilməsi prinsipi. b) Morfemlərin düzgün yazılışı ilə düzgün tələffüzünün qarşılıqlı mənimsədilməsi prinsipi.

Orfoqrafiyada baş verən dəyişikliklərin və qanunauyğunluqların təlimdə nəzərə alınması.

Orfoqrafik bilik, bacarıq və vərdişlər.

Orta təhsil sistemində orfoqrafiyanın təliminin yeri. Fonetika bölməsinin tədrisində orfoqrafiya üzrə verilən bilik, bacarıq və vərdişlərin həcmi. Morfologiya bölməsinin tədrisində orfoqrafiya üzrə verilən bilik, bacarıq və vərdişlərin həcmi. Müasir proqram və dərsliklərdə orfoqrafiya məsələləri.

### Ədəbiyyat


1. Abdullayev A. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası, "Maarif" nəşriyyatı, 1988.
2. Balıyev H. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası, "Maarif" nəşriyyatı, 1988.
3. Orta məktəbdə Azərbaycan dilinin tədrisi (II hissə), "Maarif" nəşriyyatı, 1977.


## VI. Orfoqrafiyanın düzgün tələffüzlə qarşılıqlı təliminin əsasları.

Orfoqrafiyanın tələffüzə münasibəti. Orfoqrafiyanın tələffüzlə qarşılıqlı təliminin obyektiv və subyektiv əsasları. Yazılışı bilavasitə tələffüzünə görə müəyyənləşən morfemlərin öyrədilməsi. Yazılışı bilavasitə tələffüzünə görə müəyyənləşdirilən morfemlərin öyrədilməsi. Orfoqrafiyanın tələffüzlə qarşılıqlı təliminin obyektiv və subyektiv əsasları.

### Ədəbiyyat


1. Balıyev H. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası, "Maarif" nəşriyyatı, 1988.
2. Əfəndizadə Ə. Düzgün yazı təliminin elmi əsasları, "Maarif" 1974.
3. Əfəndizadə Ə. Orfoqrafiya – orfoepiya lüğəti (kompleks lüğət) 2011.

**VII. Yazılışı çətin sözlər və onların öyrədilməsi yolları.**

"Yazılışı çətin sözlər" anlayışı. Yazılışı tələffüzündən fərqlənən çətin sözlər. Bitişik və ayrı yazılmasına görə çətin fərqlənən mürəkkəb sözlər. (Ağdam, qızılgül, və s.). Dilimizə rus dili vasitəsilə keçib həmin dildəki yazılış və tələffüzünə görə fərqlənən sözlər. Orfoqrafiyası ümumi qaydalarla müəyyənləşən, lakin yazılışı şagirdlərə məlum olmayan sözlər.

**Ədəbiyyat**


1. Əfəndizadə Ə. Düzgün yazı təliminin elmi əsasları, "Maarif" 1974.

2. Əfəndizadə Ə. Yazılışı çətin sözlər və onların öyrədilməsi yolları, "Azərtədrisnəşr", 1964.

3. Orta məktəbdə Azərbaycan dilinin tədrisi (II hissə), "Maarif" nəşriyyatı, 1977.


**VIII. Orfoqrafiyanın qrammatika ilə əlaqəli tədrisi.**

Orfoqrafiyanın qrammatika ilə əlaqəli tədrisini şərtləndirən başlıca amillər:

- Düzgün yazı qaydalarının bir çoxunun məhz qrammatikanın öyrənilməsi ilə qarşılıqlı olaraq mənimsədilməsi;
- Bir sıra orfoqrafik qaydaların dərk olunması prosesini qüvvətləndirməkdə qrammatikanın özünü vacib element kimi göstərməsi;
- Orfoqrafik qaydaların bir çoxunu bilavasitə və ya bilavasitə dilimizin qrammatik quruluşunun müəyyən xüsusiyyətlərinə istinad etməsi.

Orfoqrafiya qaydalarının qrammatikaya münasibətinə görə bölündüyü qruplar və bunların öyrədilməsi yolları.

Söz köklərinin müxtəlif qrammatik formalara düşməsi ilə əlaqədar yazı qaydaları: a) son səsi [x] və ya [ğ] kimi, [x'] və ya [y] kimi tələffüz edilib müvafiq olaraq q və k ilə yazılan sözlərin yazılışı; məsələn: otaq, külək və s.; b) sonu eynicinsli qoşa samitlə bitən təkhecalı sözlərin – *xətt, fənn* və s. yazılışı; c) *sinif, fəsil, qarın*

və s. tipli sözlərin ikinci hecalarındakı saitin düşməsi qaydası və s. ç) şəkilçilərin yazılışı, məsələnin linqvistik-metodik əsasları. d) köməkçi nitq hissələrinin yazılışı ilə əlaqədar olan qaydaların öyrədilməsi yolları.

### Ədəbiyyat

1. Abdullayev A. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası, "Maarif" nəşriyyatı, 1988.

2. Əfəndizadə Ə. Düzgün yazı təliminin elmi əsasları, "Maarif" 1974.

3. Orta məktəbdə Azərbaycan dilinin tədrisi (II hissə), "Maarif" nəşriyyatı, 1977.

## IX. Orfoqrafiya təlimində istifadə edilən iş növləri, üsul və vasitələr.

Orfoqrafik təhlil. Orfoqrafiya təlimində istifadə edilən müxtəlif yazı növləri: üzündən köçürmə yazılar, əzbər yazılar, müxtəlif növlü imlalar (xəbərdarlıqlı imla, izahlı imla komentariyalı imla, "özümü yoxlayıram" imlası, adi imla, seçmə imla, sərbəst imla, yaradıcı imla, yoxlama imlalar və s.).

İmla yazıdakı səhvlərin təshihi və bu səhvlər üzərində işin təşkili. İmla yazılarda qiymət normaları.

### Ədəbiyyat

1. Balıyev H. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası, "Maarif" nəşriyyatı, 1988.

2. Azərbaycan dilindən şagirdlərin bilik, bacarıq və vərdişlərinin qiymətləndirilməsi normaları (metodik tövsiyə), Bakı – 1985

3. Balıyev H. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası, "Maarif" nəşriyyatı, 1988.

4. Əfəndizadə Ə. Orta məktəbdə imla, "Maarif" nəşriyyatı, 1983.

## ƏSAS ƏDƏBİYYAT

1. Azərbaycan dilindən şagirdlərin bilik, bacarıq və vərdişlərinin qiymətləndirilməsi normaları (metodik tövsiyə), Bakı – 1985

2. Azərbaycan dilinin orfoqrafiya lüğəti, "Lider nəşriyyatı", 2004.

3. Azərbaycan dilinin orfoqrafiya lüğəti, Bakı – 2013

4. Balıyev H. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası, "Maarif" nəşriyyatı, 1988.

5. Əfəndizadə Ə. Düzgün yazı təliminin elmi əsasları, "Maarif" 1974.

6. Əfəndizadə Ə. Yazılışı çətin sözlər və onların öyrədilməsi yolları, "Azərtədrisnəşr", 1964.

7. Əfəndizadə Ə. Orta məktəbdə imla, "Maarif" nəşriyyatı, 1983.

8. Əfəndizadə Ə. Orfoqrafiya – orfoepiya lüğəti (kompleks lüğət) 2011.

9. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili (fonetika, orfoepiya, orfoqrafiya), "Maarif" nəşriyyatı, 1972.

10. Quliyeva A., Soltanov M. Məktəblinin orfoqrafiya-orfoepiya-qrammatika lüğəti, Baki, 2011.

11. Müasir Azərbaycan dili, I hissə, "Elm" nəşriyyatı, 1978.

12. Orfoqrafiya-orfoepiya lüğəti. ("Abituriyent" jurnalının xüsusi buraxılışı), 2012

13. Orta məktəbdə Azərbaycan dilinin tədrisi (II hissə), "Maarif" nəşriyyatı, 1977.

## ƏLAVƏ ƏDƏBİYYAT

1. Abdullayev A. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası, "Maarif" nəşriyyatı, 1988.

2. Axundov A. Məktəblinin orfoqrafiya lüğəti, "Təhsil" 2004.

3. Azərbaycan dilinin orfoqrafiya lüğəti, Bakı – 1975

4. Quliyeva A., Soltanov M. Məktəblinin orfoqrafiya-orfoepiya-qrammatika lüğəti, Bakı, 2011.

5. Orta məktəbdə Azərbaycan dilinin tədrisi (II hissə), "Maarif" nəşriyyatı, 1977.

## İMTAHAN SUALLARI

1. Azərbaycan dilinin orfoqrafiya lüğətləri (1975, 2004 və 2013-cü il nəşrlərinin müqayisəli təhlili)

2. Azərbaycan dili orfoqrafiyasının fonetik prinsipi

3. Azərbaycan dili orfoqrafiyasının morfoloji prinsipi

4. Azərbaycan dili orfoqrafiyasının tarixi-ənənəvi prinsipi

5. Məktəblilər üçün tərtib edilmiş orfoqrafiya lüğətləri

6. Dil ünsiyyətinin şifahi və yazılı formaları, onların qarşılıqlı əlaqəsi.

7. Orfoqrafiyanın spesifik cəhətləri və bunların təlimdə nəzərə alınması

8. Saitlərin orfoqrafiyası

9. Samitlərin orfoqrafiyası

10. Mürəkkəb sözlərin yazılışı və sözlərin sətirdən sətirə keçirilməsi qaydaları

11. Birinci hərfi böyük yazılan sözlər. İxtisarların (abreviaturaların) yazılışı.

12. Orfoqrafiya təliminin ümumi **metodik prinsipləri**: morfemlərin yazılışı ilə mənalarının müvazi mənimsədilməsi prinsipi.

13. Orfoqrafiya təliminin ümumi **metodik prinsipləri**: morfemlərin düzgün yazılışı ilə düzgün tələffüzünün qarşılıqlı mənimsədilməsi prinsipi.

14. Orfoqrafiyada baş verən dəyişikliklərin və qanunauyğunluqların təlimdə nəzərə alınması.

15. Orfoqrafik bilik, bacarlq və vərdişlər.

16. Fonetika bölməsinin tədrisində orfoqrafiya üzrə verilən bilik, bacarıq və vərdişlərin həcmi.

17. Morfologiya bölməsinin tədrisində orfoqrafiya üzrə verilən bilik, bacarıq və vərdişlərin həcmi.

18. Müasir proqram və dərsliklərdə orfoqrafiya məsələləri.

19. Orfoqrafiyanın tələffüzə münasibəti. Orfoqrafiyanın tələffüzlə qarşılıqlı təliminin obyektiv və subyektiv əsasları.

20. Yazılışı bilavasitə tələffüzünə görə müəyyənləşən morfemlərin öyrədilməsi.

21. Yazılışı bilvasitə tələffüzünə görə müəyyənləşdirilən morfemlərin öyrədilməsi.

22. Yazılışı çətin sözlər və onların öyrədilməsi yolları.

23. Düzgün yazı qaydalarının bir çoxunun məhz qrammatikanın öyrənilməsi ilə qarşılıqlı olaraq mənimsədilməsi.

24. Orfoqrafiya qaydalarının qrammatikaya münasibətinə görə bölündüyü qruplar və bunların öyrədilməsi yolları.

25. Orfoqrafik təhlil.

26. Orfoqrafiya təlimində istifadə edilən müxtəlif yazı növləri: üzündən köçürmə və əzbər yazılar.

27. Müxtəlif növlü imlalar: xəbərdarlıqlı imla, izahlı imla, komentariyalı imla, "özümü yoxlayıram" imlası.

28. Müxtəlif növlü imlalar: adi imla, seçmə imla, sərbəst imla, yaradıcı imla.

29. İmla yazıdakı səhvlərin xarakteri və qiymətləndirmədə onların nəzərə alınması. İmla yazıların aparılması, təshihi və səhvlər üzərində işin təşkili.

30. İmla yazılarda qiymət normaları.

## SƏRBƏST İŞLƏRİN MÖVZULARI

1. Azərbaycan dilinin orfoqrafiya lüğətləri (1975, 2004 və 2013-cü il nəşrlərinin müqayisəli təhlili).

2. Ə. Əfəndizadənin "Düzgün yazı təliminin elmi əsasları" kitabında orfoqrafiyanın düzgün tələffüzə münasibətdə öyrədilməsi məsələləri

3. Ə. Əfəndizadənin "Düzgün yazı təliminin elmi əsasları" kitabında düzgün yazı təlimində qrammatikanın yeri və əhəmiyyəti məsələləri

4. Ə. Əfəndizadənin "Düzgün yazı təliminin elmi əsasları" kitabında Azərbaycan dilin orfoqrafiyasının xüsusiyyətləri düzgün yazı təliminin əsası kimi.

5. Azərbaycan dili orfoqrafiyasının fonetik prinsipi

6. Azərbaycan dili orfoqrafiyasının morfoloji prinsipi

7. Azərbaycan dili orfoqrafiyasının tarixi-ənənəvi prinsipi

8. Məktəblilər üçün tərtib edilmiş orfoqrafiya lüğətləri

9. Dil ünsiyyətinin şifahi və yazılı formaları, onların qarşılıqlı əlaqəsi.

10. Orfoqrafiyanın spesifik cəhətləri və bunların təlimdə nəzərə alınması

11. Saitlərin orfoqrafiyası

12. Samitlərin orfoqrafiyası

13. Mürəkkəb sözlərin yazılışı və sözlərin sətirdən sətirə keçirilməsi qaydaları

14. Birinci hərfi böyük yazılan sözlər. İxtisarların (abreviaturaların) yazılışı.

15. Orfoqrafiya təliminin ümumi **metodik prinsipləri**: morfemlərin yazılışı ilə mənalarının müvazi mənimsədilməsi prinsipi.

16. Orfoqrafiya təliminin ümumi **metodik prinsipləri**: morfemlərin düzgün yazılışı ilə düzgün tələffüzünün qarşılıqlı mənimsədilməsi prinsipi.

17. Orfoqrafiyada baş verən dəyişikliklərin və qanunauyğunluqların təlimdə nəzərə alınması.

18. Orfoqrafik bilik, bacarıq və vərdişlər.

19. Fonetika bölməsinin tədrisində orfoqrafiya üzrə verilən bilik, bacarıq və vərdişlərin həcmi.

20. Morfologiya bölməsinin tədrisində orfoqrafiya üzrə verilən bilik, bacarıq və vərdişlərin həcmi.

21. Müasir proqram və dərsliklərdə orfoqrafiya məsələləri.

22. Orfoqrafiyanın tələffüzə münasibəti. Orfoqrafiyanın tələffüzlə qarşılıqlı təliminin obyektiv və subyektiv əsasları.

23. Yazılışı bilavasitə və bilavasitə tələffüzünə görə müəyyənləşən morfemlərin öyrədilməsi.

24. Yazılışı çətin sözlər və onların öyrədilməsi yolları.

25. Düzgün yazı qaydalarının bir çoxunun məhz qrammatikanın öyrənilməsi ilə qarşılıqlı olaraq mənimsədilməsi.

26. Orfoqrafiya qaydalarının qrammatikaya münasibətinə görə bölündüyü qruplar və bunların öyrədilməsi yolları.

27. Orfoqrafik təhlil.

28. Orfoqrafiya təlimində istifadə edilən müxtəlif yazı növləri.

29. İmla yazıdakı səhvlərin xarakteri və qiymətləndirmədə onların nəzərə alınması. İmla yazıların aparılması, təshihi və səhvlər üzərində işin təşkili.

30. İmla yazılarda qiymət normaları.

Çapa imzalanıb: 21.01.2015.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 1 ç.v. Tiraj: 100. Sifariş: 01

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru

www.mutercim.az